# Yaşasaydı 70 yaşı olacaqdı!

## Dünya, qapını aç...

**Könlümə bir yuva yapa bilmədim,**
**başımı daşına çırpa bilmədim.**
**qapın hayandadır, tapa bilmədim,**
**Dünya, qapını aç, aç, çıxım gedim...**

Tədbirim başlanmasına hələ xeyli vardı! ömrümüzün az qala 30 ilini redaksiyada birgə keçirdiyimiz, çağdaş Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri olan əməkdar incəsənət xadimi, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, şair-publisist dostumuz Məmməd Alimin fəxri xiyabandakı məzarını ziyarət edib, qərənfillər düzdük. Ruhuna dualar söylədik. Geri dönəndə qeyri-ixtiyari Məmməd Alimin "Dünya, qapını aç" sonuncu - ölümündən sonrakı kitabından yuxarıdakı misraları xatırlatdım. Rəfiqə xanım Sadıqova, Yaşar Nəbiyev ardıcıl bəndləri söylədilər. Beləcə yol boyu şairin misraları ilə "köklənib" M.Cəlal Paşayevin ev muzeyi yanındakı Azərbaycan Yazıçılar Birliyi Gəncə bölməsinin iqamətgahına gəldik. Burada Məmməd Alim poeziyasını sevənlər, şairin qələm dostları, ailə üzvləri salona toplaşmışdılar.



AYB Gəncə Bölməsinin rəhbəri, əməkdar mədəniyyət işçisi, şair Xəzangül xanım tədbiri giriş sözü ilə açaraq Məmməd Alim yaradıcılığına işıq saldı. Sonra əməkdar jurnalist Nüşabə xanım Məmmədli Əsəd M.Alimlə uzun müddətli dostluğundan xatirələrini dilə gətirdi. Yazıçı-jurnalist "Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə xanım Sadıqova Məmməd Alimlə birlikdə işlədiyi illəri xatırladı, unudulmaz xatirələrini tədbir iştirakçıları ilə bölüşdü.

Şairin qızı Aysel və nəvələrinin çıxışları daha həyəcanlı səsləndi. Günel, Mədinə, bacısı qızı Sədaqət şairin unudulmaz anlarını yada saldılar.

Qələm dostları - yazıçı-publisist Qərib Mehdi, Şair İnqilab İsax, jurnalist Sabir Yaşar, teatrşünas Anar Bürcəliyev, yazıçı İsmayıl Abbas, nasir-dramaturq Ofelya Mədətqızı öz xatirələrindən danışdılar.

Bu sətirlərin müəllifi, uşaqlıq, yeniyetməlik dostu, iş yoldaşı Füzuli Rüzigar çıxış edərək, ötən 60 illik xatirələrini "vərəqlədi", unudulmaz anları yada saldı.

Və qeyd etdi ki, əməkdar incəsənət xadimi, Məmməd Alim məhz əla-həzrət Söz üçün dünyaya gəlmiş və düşüncəli ömründə ona heç zaman xəyanət etməmişdir. Poeziya üçün bütöv doğulmuş və "Dünya, qapını aç!.." qoy, çıxım gedim, demişdir.

Şairin qardaşı Fəqanı, ömür-gün yoldaşı, Məmməd Alimin sonuncu kitabının redaktoru və ön sözün müəllifi Tamella Məmmədova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına şairin doğmaları adından səmimi təşəkkürlərini bildirdilər. Sonda şairə Xəzangül Məmməd Alimin öz dili ilə söylədiyi səs yazısını səsləndirmişdir.

Tədbirdən sonra xatirə şəkilləri çəkdirilmişdir.

**Füzuli RÜZİGAR**

Ədalət 2019. 31 oktyabr. S.6.